

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 iyun 2025-ci il №40 (2949) https://mod.gov.az Qiyməti 30 qəpik


## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzularımı yetirirəm.

Dünya müsəlmanlarının mənəvi birlik və vəhdət rəmzi olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə bərabərliyə, qardaşlığa və fədakarlığa dəvət edir.

Cəmiyyətimizdə humanizmi və xeyirxahlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və təntənə ilə keçirilir. Bu günlərdə dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, saf niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 iyun 2025-ci il

## Müdafiə Nazirliyinin məlumatı




Havaların qeyri-sabit keçməsi səbəbindən respirator xəstəliklərə, o cümlədən hazırda ölkə ərazisində yayılmış mövsümi qrip infeksiyasına yoluxma hallarında artım müşahidə olunur.

Bununla əlaqədar şəxsi heyətin sağlamlığının qorunması məqsədilə hərbi hissələrdə, xüsusilə adaptasiya dövründə olan gənc əsgərlərlə görüşə müvəqqəti məhdudiyyət qoyulub.

Hərbi hissələrdə komandir-rəis heyəti və hərbi tibb personalı tərəfindən hərbi qulluqçuların səhhətinin diqqət mərkəzində saxlanılması üçün effektiv qabaqlayıcı tədbirlər görülür, bütün növ təminat yüksək səviyyədə təşkil olunur.

İctimaiyyətdən hərbi qulluqçularımızın sağlamlığına həssaslıqla yanaşmağı, qeyd olunan məhdudiyyəti anlayışla qarşılamağı, qarşıdan gələn Qurban bayramı və istirahət günlərində hərbi hissələrə gəlməməyi xahiş edirik.

## Polad iradəli tankçılar

Tankların hərb tarixində rolu danılmazdır. Dünyanın ilk tankı sayılan "Mark I" 1916-cı ildə Böyük Britaniya tərəfindən yaradılmış və Birinci Dünya müharibəsi zamanı döyüşlərdə istifadə olunmuşdur. Birinci Dünya müharibəsində səngər döyüşləri orduların hərəkətliliyini ciddi şəkildə məhdudlaşdırırdı. Bu problemi həll etmək üçün Britaniya mühəndisləri zirehli və hərəkət qabiliyyətli bir maşın hazırlamağa qərar verdilər. Nəticədə, düşmən səngərlərini yarmaq və əsgərlərin irəliləməsini təmin etmək məqsədilə "Mark I" tankı yaradıldı.


**(Ardı 5-ci səhifədə)**




*Döyüş hazırlığı*

## Əsgərlərimiz ərazi bütövlüyümüz ilə yanaşı, səmamızın da təhlükəsizliyini qoruyurlar

Qalib Azərbaycan Ordusunda aparılan islahatlar sırasında şəxsi heyətin döyüş hazırlığı cəmləşmiş bütün parametrləri ilə mühüm əhəmiyyət kəsb edən faktorlardan biridir. Belə ki, ordu sıralarında xidmət edən əsgərlərin formalaşması və bir döyüşçü kimi yetişməsində əsas yük məhz döyüş hazırlığı məşğələlərinin üzərinə düşür. Qarşıya qoyulmuş tapşırığın icrasına malik ordunun formalaşmasında döyüş hazırlığı məşğələlərinin rolu böyükdür. Keçirilən təlim, təşkil olunan məşğələlər əsgərlərin Vətən müdafiəsi kimi ümdə vəzifənin öhdəsindən layiqincə gəlməsində mayak rolunu oynayır. Döyüş hazırlığı məşğələ və təlimlərinin uğurla keçirilməsində isə yüksək hərbi bilik və bacarığa malik kadr heyətinin əhəmiyyəti ön plana çıxır. Çünki təcrübəli komandir heyəti tərəfindən yetişdirilən əsgər həm fiziki, həm mənəvi-psixoloji hazırlığı ilə fərqlənir, həm də döyüş hazırlığı yüksək olur. Bir sözlə, gənc əsgər bir döyüşçü kimi yetişir, özünü yüksək hazırlıqlı hərbi qulluqçu kimi təkmilləşdirir.


**(Ardı 3-cü səhifədə)**




## ƏÜO-da "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib



Əlahiddə Ümumqoşun Ordu-da (ƏÜO) "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik edib, hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və bölmələrin döyüş qabiliyyətinin artırılmasında bu cür kursların əhəmiyyətini vurğulayıblar.

Kursu müvəffəqiyyətlə bitirən məzunlar "Komando andı"nı qəbul ediblər.

Sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Buraxılış mərasiminin sonunda şəxsi heyət təntənəli marşın sədaları altında tribunanın önündən keçib.

## "Çalışırıq ki, keçirilən sıra hazırlığı məşğələlərinin bütün incəliklərini tam mənimsəyək"

"N" hərbi hissəsində olduğumuz zaman şəxsi heyət günün nizam qaydasına uyğun olaraq müxtəlif məşğələ və dərslərlə məşğul olur, nəzəri və praktiki vərdişlərini təkmilləşdirirdi. İlk şahidi olduğumuz dərs prosesi sıra hazırlığı oldu. Burada Vətən müdafiəçilərimiz leytenant Eşqin Nəsiblinin nəzarəti altında sıra hazırlığının fənn və elementlərini, sıranın müqəddəsliyini, eləcə də digər incəliklərini öyrənirdilər. Sıra hazırlığının elementlərini icra edən əsgərlərin verilən komandaları düzgün yerinə yetirməsi mənə xoş ovqat aşılayırdı.




**(Ardı 6-cı səhifədə)**

# Azərbaycan Respublikasının müdafiə nazirinin Qurban bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar, dövlət qulluqçuları və mülki işçilər!

Sizi Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, Vətənə müqəddəs və şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan müsəlman dünyasının mənəvi birlik, həmrəylik, qardaşlıq rəmzinə çevrilən müqəddəs Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi dəyərlərə möhkəm bağlılığı yaşatmaqla humanizm, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsini özündə ehtiva edir. Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dönəmlərində ölkəmizin dövlət quruculuğu siyasətində azərbaycançılıq məfkurəsini, milli-mənəvi dəyərlərimizi yüksək tutaraq, adət və ənənələrimizin qorunub saxlanmasında misilsiz xidmətlər göstərmişdir.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində respublikamızın iqtisadi dayaqları daha da güclənərək demokratik dövlət quruculuğu prosesində beynəlxalq nüfuzu artmaqdadır. Azərbaycan dünyada islami, bəşəri milli-mənəvi dəyərlərə önəm verən və hörmətlə yanaşan, humanist, tolerant dövlət kimi tanınır. Azərbaycan dövləti bu gün regionda sülhün və sabitliyin qorunmasının əsas təminatçısına çevrilmişdir.

Respublikamızın müdafiə qüdrətinin artırılması istiqamətində qazanılan böyük nailiyyətlər, eyni zamanda, orduda aparılan genişmiqyaslı islahatlar, sosial infrastrukturun gücləndirilməsi, hərbi qulluqçuların xidmət şəraitinin yaxşılaşdırılması, keçirilən təlimlər, düşmən təxribatlarına qarşı aparılan uğurlu irimiqyaslı əks-hücum əməliyyatları şəxsi heyətin qələbə əzmini daha da möhkəmləndirərək, 44 günlük Vətən müharibəsində qazanılmış Zəfərlə Azərbaycan Ordusunun şanlı tarixində yeni qəhrəmanlıq səhifələri açmışdır.

Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə ordumuzun Vətən müharibəsində qazandığı parlaq Qələbə və həyata keçirdiyi uğurlu döyüşlər, antiterror əməliyyatı nəticəsində düşmən işğalında olmuş tarixi torpaqlarımız azad edildi. Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, ordumuzun peşəkarlığı sayəsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tam təmin edildi.

Bu gün işğaldan azad olunmuş ərazilərimizdə rəşadətli Azərbaycan Ordusu öz mövqelərini daha da möhkəmləndirərək bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə, Böyük Qayıdışa öz layiqli töhfələrini verir.

Əminəm ki, ordumuz Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlığını daha da artıraraq, Ali Baş Komandanın əmr və tapşırıqlarını ən yüksək səviyyədə yerinə yetirəcəkdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, hörmətli Mehriban xanım Əliyeva respublikamızın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüş əməliyyatları və Vətən müharibəsi zamanı yaralanmış hərbi qulluqçulara, o cümlədən şəhid ailələrinə və müharibə veteranlarına hər zaman xüsusi diqqət və qayğı göstərmişdir.

Respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı canlarından keçən şəhidlərimizin əziz xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailələrini, torpaqlarımızın azadlığı uğrunda sağlamlığını itirən döyüşçülərimizi, veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, ailə səadəti və şərəfli xidmətinizdə nailiyyətlər arzulayıram. Bu bayram həyatınıza əmin-amanlıq, firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**General-polkovnik
Zakir Həsənov
Azərbaycan Respublikasının
müdafiə naziri**

## Azərbaycan və Serbiya hərbi nümayəndələri arasında görüş keçirilib



Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan və Serbiya Müdafiə nazirlikləri arasında 2025-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Bakıda iki ölkənin Müdafiə nazirliklərinin əməkdaşları arasında görüş keçirilib.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən görüşdə tərəflər birgə əməkdaşlıq çərçivəsində görülən işlərin cari vəziyyətini təhlil edib, perspektiv planlara dair müzakirələr aparıb və qarşılıqlı maraq doğuran digər məsələlərdən danışıblar.

## Azərbaycan Ordusunun nümayəndələri "Qətiyyətli Güc-2025" təlimində iştirak ediblər





*Azərbaycan Ordusunun nümayəndələri NATO-nun "Qətiyyətli Güc-2025" (Resolute Force-2025) çoxmilətli komanda-qərargah təlimində iştirak ediblər.*

Müdafiə Nazirliyi xəbər verir ki, Bolqarıstan Respublikasının G.Rakovski adına Hərbi Akademiyasında təşkil olunan təlimdə ölkəmizi Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunun bir qrup zabit heyəti təmsil edib.

Bolqarıstan, Gürcüstan, Rumıniya, Şimali Makedoniya, Yunanıstan ordularının təmsilçilərinin də iştirak etdikləri təlimdə zabitlərimiz tapşırıqların öhdəsindən məharətlə gəliblər.

Təlimin keçirilməsinin məqsədi hərbi qərar qəbuletmə prosesinə uyğun fəaliyyətlərin icrası, eləcə də komandirlərin və qərargahların əməliyyat şəraitində bölmələri idarəetmə bacarıqlarının artırılmasıdır.

Komanda-qərargah təliminin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

### *Medallı igidlərimiz*

## Göstərilən tibbi xidmət əsgərlərə ruh verir

*Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Nurlan Muradov hərbi hissədə sanitar-təlimatçı, həm də İkinci Qarabağ müharibəsi iştirakçısıdır. 27 sentyabr 2020-ci ildə başlayan haqq savaşında erməni təcavüzünün qarşısının alınması məqsədilə dövlətimizin başçısı dərhal orduya əks-hücum əmrini verdi.*

Həmin gün Nurlan da gündəlik xidməti fəaliyyəti ilə məşğul idi. Müharibə başlayanda o da Ali Baş Komandanın bu əmrinə sevindi. Çünki 30 ilə yaxın ermənilərin işğal etdikləri torpaqlarımız azad ediləcək. Nurlan da hamı kimi hərbi hissə komandirinin əmrini gözləyirdi. Çox keçmədi ki, onların da hərbi hissəsi döyüş əməliyyatına cəlb edildi.



Füzuli, Cəbrayıl və Xocavənd rayonları istiqamətlərində gedən döyüşlər zamanı Nurlan yaralı döyüşçülərə ilk tibbi yardım göstərdi. Onların həyatlarını xilas etmək üçün üzərinə düşən tapşırığı yüksək səviyyədə yerinə yetirməyə çalışdı. İkinci Qarabağ müharibəsindəki xidmətlərinə görə kiçik çavuş Nurlan Muradov da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Kiçik çavuş Nurlan Muradov hazırda hərbi hissənin tibb məntəqəsində müraciət edən əsgərləri əvvəlcə qeydiyyata alır, sonra onları müayinə edir, səhhətləri ilə bağlı gərəkli tövsiyələr verir. Sanitar-təlimatçı dedi ki, son günlərdə daha çox müraciət edən hərbi qulluqçuların şikayəti hərarətin yüksək olması və halsızlıqla bağlıdır. Əsgər Amil Mirzəyev səhhəti ilə bağlı tibb məntəqəsinə müayinə olunmaq üçün gəlib. Sanitar-təlimatçı Nurlan Muradov əsgəri müayinə edəndən sonra səhhətində ciddi, narahat olacaq heç nəyin olmadığını bildirdi.

Hərbi hissənin tibb məntəqəsinə müraciət edən əsgərlərdən Rəhman Məmmədzadə, Nicat Zeynalzadə, Vilayət Rəhimli və Elşən Ələsgərli də müayinə olunandan sonra bir müddət həkim nəzarətində olmaları üçün tibb məntəqəsinin palatasına yerləşdirildilər. Kiçik çavuş Nurlan Muradovun tibb məntəqəsində müalicə olunan əsgərlərə qayğı ilə yanaşdığını görürük. O, tez-tez palatalara baş çəkir, əsgərlərin səhhətləri ilə yerində tanış olur, onların müalicə prosesini müntəzəm olaraq nəzarətdə saxlayırdı.

Ordumuzda Nurlan Muradov kimi öz xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlməyi bacaran hərbi qulluqçularımız çoxdur. Onun kimi tibb işçilərinin fəaliyyəti komandirlər tərəfindən yüksək qiymətləndirilir. Ümid edirik ki, göstərilən yüksək tibbi xidmət sayəsində tibb məntəqəsində müalicə olunan əsgərlərin sayı ən az həddə olacaq. Çünki göstərilən xidmət bu cür deməyə əsas verir.

**Bəxtiyar ƏLİYEV
"Azərbaycan Ordusu"**

# Əsgərlərimiz ərazi bütövlüyümüz ilə yanaşı, səmamızın da təhlükəsizliyini qoruyurlar



**(Əvvəli 1-ci səhifədə)**

"N" hərbi hissəsində zenit-raket-artilleriya bölməsinin şəxsi heyətinin iştirakı ilə təşkil olunan çöl dərsi zamanı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Rəşad Hacıyevin fikirlərini qələmə aldıq: "Günün nizam qaydasına və döyüş hazırlığı planına uyğun olaraq əsgərlərimiz keçirilən çöl dərsində iştirak edirlər. Dərs zamanı həm nəzəri biliklər, həm də praktiki vərdişlər real şəraitdə tətbiq olunur. Çöl məşğələsi zamanı şəxsi heyət ərazidə mövqelənmə (həmçinin yerdəyişmə), texnikanın döyüş vəziyyətinə gətirilməsi, verilən komandaların icrası (məlumatı qəbuletmə, hədəfi təyinetmə, tuşlama və s.) və digər ixtisas biliklərini dərindən mənimsəyir, xüsusi hazırlıq üzrə tapşırıqları normativə uyğun yerinə yetirir. Siz də şahid oldunuz ki, bölməmizin əsgərləri öz ixtisasının nəzəri hissəsini mənimsəyib. Onlar öz üzərlərinə düşən məsuliyyəti dərindən dərk edir, verilən ümdə vəzifələri ləyaqətlə icra edirlər. Keçirilən hər bir dərs əsgəri əsl döyüşçü kimi formalaşdırır".

Rəşadla söhbət əsnasında onun İkinci Qarabağ müharibəsi və 2023-cü ildə keçirilən antiterror əməliyyatının iştirakçısı olduğunu öyrənirəm. Müsahibim ordu quruculuğunda döyüş hazırlığının rolunun danılmaz olduğunu da qeyd etdi: "Məlumdur ki, ordunun güclənməsində, onun özünümüdafiə və döyüşaparma qabiliyyətinin yüksəlməsində əsgərin döyüş hazırlığının mühüm təsiri var. Bunun üçün də təşkil olunan dərslərdə yüksək bilik və bacarığa yiyələnən əsgərlərimiz bu gün öz çevikliyi, intizamı, dözümlülüyü ilə ordumuzun güclənməsinə xidmət edirlər", - deyən çavuş Hacıyev bizi məşğələ iştirakçısı olan əsgərlərlə tanış etdi.

Əsgər İbrahim Ağayev mütəmadi keçirilən dərslər və tədricən mənimsənilən mövzular barədə danışdı: "Təşkil olunan dərslər əvvəlcə siniflərdə, sonradan isə çöl şəraitində keçirilir. Öyrənilən nəzəri biliklər praktikada icra olunur. Komandirlərimiz bizi öncə silahla tanış edir, onun taktiki-texniki xüsusiyyətləri barədə məlumatlandırır. Daha sonra vəzifələrə ayrılan şəxsi heyət öz işinin incəliklərini öyrənir. Hər bir heyət üzvü öz ixtisas bilikləri ilə yanaşı, fiziki, mənəvi-psixoloji hazırlığını da diqqətdə saxlayır. Bu gün Vətən səmalarının keşikçiləri bizik. Vətənimizin hər qarışı bizim üçün əzizdir. Başımızın üzərində dalğalanan bayrağımız isə qürur mənbəyimizdir".

Əsgər Maqsud Soltanov qüdrətli ordunun sıralarında xidmət etməyin insandan güclü məsuliyyət tələb etdiyini bildirdi: "Qalib Azərbaycan Ordusunun əsgəri adını daşımaq sözlə izaholunmaz fəxrdir. Güclü ordunun güclü əsgəri olmaq, komandirlərimə və doğmalarıma başucalığı gətirmək üçün ixtisasımın incəliklərini öyrənirəm. Vətənə və xalqıma sədaqətlə xidmət etmək mənim başlıca qayəmdir. Ümdə amala xidmət etmək qürurdur. Bu qüruru layiqincə yaşamaq üçün öz bilik və bacarıqlarımızı artırırıq. Bu işdə bizə dəstək olan komandirlərimizə minnətdarıq. Bizim əsl hərbçi kimi yetişməyimizdə onların zəhməti danılmazdır".

Bölmənin növbəti heyət üzvü əsgər Rauf Cəlilov keçirilən dərslər sayəsində öz ixtisas biliklərinin incəliklərini mənimsədiyini qeyd etdi: "Təcrübəli komandirlərimizin rəhbərliyi altında nəzəri biliklərimizi sinif dərslərində, praktiki bacarıqlarımızı çöl dərslərində artırırıq. Bölməmizdə əsl kollektiv mühiti mövcuddur. Hər birimiz dərslərdə fəal iştirak edir, tapşırıqların icrası üçün əlimizdən gələnin ən yaxşısını etməyə çalışırıq".

Əsgərlər Amin Verdiyev və Sənan Qafarov da xidmətləri dövründə döyüş hazırlığı planına əsasən keçirilən məşğələ və təlimlər sayəsində yetərincə təcrübə qazandıqlarını qeyd etdilər. Təşkil olunan nəzəri və praktiki dərslərdən başqa keçirilən təlimlərdə də öyrəndiklərini sınaqdan keçirən əsgərlərimiz hava məkanının müdafiəçiləri kimi formalaşdıqlarını bildirdilər.

Vətəni sevmək, onun havasını, suyunu, torpağını sevməkdir. Əsgərlərimiz ərazi bütövlüyümüz ilə yanaşı, səmamızın da təhlükəsizliyini qoruyurlar. Bu gün səma keşikçisi olan əsgərlərimizlə tanışlıqdan sonra bir daha əmin oldum ki, səmamızda bir daha qara buludlar, şər qüvvələr olmayacaq. Çünki Azərbaycan əsgəri Vətənə övladlıq borcunu həm vətənpərvərlik hissi ilə, həm də yüksək döyüş hazırlığı ilə ödəyir. Onların hər biri dərk edir ki, Vətəni qorumaq vəzifələrin ən ümdəsidir.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**



*Gənc zabitlərimiz*

# Möhkəm iradə, böyük amal



***Hər bir gəncin uşaqlıqdan qəlbində başladiyi bir arzu, gələcək üçün qurduğu bir xəyal olur. Kimisi müəllim, kimisi həkim, kimisi isə Vətənin keşiyində dayanmaq üçün hərbçi olmaq istəyir. Qəhrəmanımız İsbəndiyar Qarayev də uşaq yaşlarından bu müqəddəs peşəyə könül verənlərdəndir. Onun bu arzusu illərlə qəlbində yaşayaraq böyüyüb və nəhayət, reallığa çevrilib - o bu gün Azərbaycan Ordusunun gənc tankçı zabitidir.***

İsbəndiyar Qarayev 5 may 2002-ci ildə Azərbaycanın igid oğullar diyarı olan Goranboy rayonunun Yeniyol kəndində anadan olub. Bu kənd həm zəhmətkeş insanları, həm də Vətənə sədaqətli övladları ilə tanınır. Məhz bu torpağın suyunu içib, havasını udaraq böyüyən İsbəndiyarın xarakterinə bu xüsusiyyətlər siraət etmişdir.

O, ilk təhsilini şəhid Çingiz Hümbətovun adını daşıyan Yeniyol kənd tam orta məktəbində alıb. Hələ məktəb illərində qayda-qanuna, nizam-intizama xüsusi həssaslıqla yanaşan İsbəndiyar müəllimlərinin də, sinif yoldaşlarının da həmişə rəğbətini qazanıb. Məktəb illərində Vətənə sevgi, torpağa bağlılıq kimi dəyərlərlə böyüyən bu gənc gələcəyini hərb sənəti ilə bağlamaqda qərarlı idi.

İsbəndiyar Qarayevin gələcək yolunu müəyyən edən əsas amillərdən biri, heç şübhəsiz, onun Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olması oldu. Bu mərhələdən sonra onun həyatı intizam, zəhmət və məsuliyyət anlayışları üzərində quruldu. Hərbi liseyin sərt, lakin formalaşdırıcı mühiti İsbəndiyarın həm fiziki, həm də mənəvi-psixoloji cəhətdən möhkəmlənməsinə, məsuliyyətli zabit kimi formalaşmasına mühüm təsir göstərdi.

Liseyi bitirdikdən sonra o, indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsilini davam etdirdi. Bu illər ərzində İsbəndiyar təkcə nəzəri biliklərlə kifayətlənməyərək, həm də döyüş texnikası, xüsusilə tankların idarə olunması və taktiki tətbiqi üzrə dərin biliklərə yiyələnib. Son nəticədə o, tankçı zabit kimi formalaşıb.

Müasir dövrdə hərb sənəti daim yenilənir və inkişaf edir. Bu baxımdan, peşəkar hərbçi olmaq istəyən şəxsin öz üzərində daimi işləməsi, bilik və bacarıqlarını təkmilləşdirməsi vacibdir. Leytenant İsbəndiyar Qarayev də bu prinsipə sadiq qalaraq Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində təkmilləşdirmə kursu keçib. Bu kurs zamanı o, döyüş əməliyyatlarının planlaşdırılması, texniki vasitələrin səmərəli istifadəsi və müasir döyüş şəraitində idarəetmə bacarığının formalaşması üzrə biliklərini daha da inkişaf etdirib.

İsbəndiyar Qarayev hələ çox gəncdir. Lakin daxili dünyasında daşıdığı güc, vətənpərvərlik hissi və peşəsinə olan sevgisi, inanırıq ki, ona hərbi sahədə daha böyük uğurlar qazandıracaq. Tankçı zabit olaraq zirehli texnikaya təkcə idarəetmə vasitəsi kimi yanaşmır - onun üçün bu, Vətənin qorunmasında əvəzsiz silah, düşmənə qarşı sipərdir.

Zabit döyüş hazırlıqlarında, taktiki məşqlərdə daim fərqlənir, şəxsi həyətə örnək olur. Liderlik keyfiyyətləri ilə seçilən İsbəndiyar həm də kollektiv içində rəğbət və hörmət qazanmağı da bacarıb.

Leytenant İsbəndiyar Qarayevin həyatı sadəcə bir şəxsin həyat yolu deyil. Bu, bir amalın, bir arzunun həyata keçməsi, bir gəncin Vətənə olan sədaqətinin bariz nümunəsidir. Onun timsalında biz Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin möhkəm dayaqlar üzərində qurulduğunu və etibarlı əllərdə olduğunu bir daha görürük.

Olduğu yerdən asılı olmayaraq dövlətinə xidmət edən hər bir gəncin yolu Vətənə sədaqətin, ailəyə, torpağa və millətə bağlılığın, daim öyrənmək və xidmət etmək ruhunun yoludur.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Əziz xalqımız, Qurban bayramınız mübarək!

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

***“İslam dininin əlamətdar mərasimlərindən olan Qurban bayramı özündə xeyirxahlığı, birlik və bərabərliyi, insanın ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq niyyətini əks etdirir”.***

*Hər xalqın min illərlə yaşadılan adətləri, ənənələri var. Bu adət-ənənələr xalqın xalq kimi formalaşmasında, gənc nəslin milli-mənəvi dəyərlər əsasında vətəndaşlaşmasında əvəzsiz vasitə olur. Yeniyetmələr çağırışçı yaşına belə çatır, çağırışçılar hərbi xidmətə bu dünya duyumu ilə gedirlər.*

*Hər bayram, hər tarixi günün mahiyyəti Vətənlə, bu baxımdan vətənpərvərliklə bağlıdır. Qurban bayramı xalqımızın böyük ümidlərlə, böyük inamla, böyük sevgilərlə qeyd etdiyi bayramlardan biridir. Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra Qurban bayramı dövlət səviyyəsində qeyd olunur.*

*Əməkdaşlarımız hərbi qulluqçularımızla görüşərək onların Qurban bayramı ilə əlaqədar təəssüratlarını öyrəniblər. Onların təəssüratlarını oxucularımıza təqdim edirik.*

"Azərbaycan Ordusu"



**Əsgər Rəvan Axundov:**

- Uşaqlığımdan valideynlərimdən müqəddəs Qurban bayramı haqqında söhbətlər eşitmişəm. Bu söhbətlər mənim də düşüncələrimə hopub, bu bayramın mahiyyətini mən də dərk etmişəm. Nənəm bu bayrama "İsmayıl qurbanlığı" bayramı deyərdi. Sonra bizə niyə belə deyildiyini izah edərdi.

Böyüdükcə Qurban bayramının aşıladığı gözəl duyğuları dərk etməyə başladım. Mən də yaşıdlarım kimi belə böyüdüm, çağırışçı yaşına çatdım...

İndi əsgərəm. Hərbi xidmətdə xalqımızın bütün adət-ənənələrini yaşadırlar. Biz hərbi qulluqçular da bu yaşadılan, yaşadılmalı adət-ənənələrin gözəlliyi ilə xidmət edirik. Bilirik ki, ailəmizdən uzaqda olsaq da, Qurban bayramının bərəkəti ilə əhatələnəcəyik, hərbi hissəmizdə qurbanlar gözəl niyyətlərlə, Vətənimizin ərazi bütövlüyü və suverenliyinin bir daha pozulmamasının, ordumuzun daha da güclənməsinin, dövlətçiliyimizin daim qorunmasının duaları ilə kəsiləcək...

Müqəddəs Qurban bayramı münasibətilə xalqımızı və ordumuzun şəxsi heyətini öz adımdan, əsgər yoldaşlarım adından təbrik edir, onlara möhkəm cansağlığı, uğurlar arzulayıram...

**Əsgər Əli Vəliyev:**

- Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra bütün bayramlar, o cümlədən Qurban bayramı da böyük sevinclə, inamla, imanla, sədaqətlə qeyd olunur. Uşaqlığımda atam bu bayramında qurban kəsərdi, bayram sevincini qonşularımızla birlikdə yaşayardıq. Qonşularımızdan birinin atası Füzulidə doğulub boya-başa çatsa da, Birinci Qarabağ müharibəsindən sonra ailəsi ilə birlikdə Bakıda məskunlaşmışdı. Torpaqlarımız işğaldan azad olunduqdan sonra onlara da öz ata-baba yurdlarından mənzil verildi, Füzuliyə köçdülər. Sinif yoldaşımız olmuş Səməd 2024-cü ilin Qurban bayramında bizə video göndərmişdi - Füzulidə Qurban bayramı qeyd olunurdu!

Füzulililərin sevinci bənzərsiz sevinc idi. Həm bayramın sevinci, həm də bu bayramı öz doğma yurd yerlərində qeyd etməyin sevinci. Sinif yoldaşımızın paylaşdığı videoya bir şərh yazmışdıq: "Bütün məcburi köçkünlər bayramlarını dədə-baba yurdlarında qeyd etsinlər...".

Ali Baş Komandanımızın sərkərdəliyi ilə ərazi bütövlüyü və suverenliyimiz tam bərpa olundu. Bütün azərbaycanlıların Qurban bayramı duası yerinə yetdi...

Mən də xalqımızı və silahdaşlarımı Qurban bayramı münasibətilə təbrik edirəm.



**Əsgər Renat Gereyxanov:**

- Hələ uşaq yaşlarımdan əsgər olmaq, tarixi torpaqlarımızı işğaldan azad etmək arzusu ilə böyümüşəm. Çünki Vətən müdafiəçisi olmaq hər birimizin vətəndaşlıq borcudur. Ailədə, məktəbdə Vətən sevgisi, orduya xüsusi məhəbbətlə tərbiyə olunmuşuq. Orta məktəbdə hər kəsin ən sevdiyi, arzusunda olduğu peşə hərbçi peşəsi idi. Torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlər zamanı əsgər yoldaşlarım kimi, mən də məktəbli idim. Sıralarında xidmət etdiyim qalib Azərbaycan Ordusu bu müqəddəs missiyanın öhdəsindən layiqincə



gələrək xalqımıza qələbə sevincini yaşatdı. İndi daha yaxşı anlayıram ki, bu peşə, həqiqətən də, ən şərəfli peşədir.

Bu gün isə mən qəhrəman şəhidlərimizin, igid oğullarımızın sayəsində öz ərazi bütövlüyü və suverenliyini tam bərpa etmiş rəşadətli ordunun əsgəriyəm. Vətənimin keşiyində dayandığım üçün fərəhlənirəm.

Xidmət müddətində elə məqamlar olur ki, onlar mənim xatirəmdə əbədi olaraq tarixləşir. Qurban bayramı da bu cür yaddaqalan, tarixləşən hadisələrdən biridir. Hamı kimi mən də qürurluyam ki, bu müqəddəs bayramı burada əsgər yoldaşlarımla birgə qeyd edirəm. Bu bayram xidmət müddətimə təsadüf edən digər bayramlar kimi mənim həyatımda silinməz tarix olacaq. Xidmətimiz uğurla davam edir. Bütün təminatlarımız qaydasındadır, məişət şəraitimiz də yüksək səviyyədədir. Hərbin sirlərinə dərindən yiyələnmişik. İstənilən təxribatın qarşısını qətiyyətlə almağa hazır əsgərlər kimi formalaşmışıq. Əsas məqsədimiz bizə əmanət olan torpaqlarımızı göz bəbəyimiz kimi qorumaq, lazım gələrsə onun ərazi bütövlüyü və suverenliyi uğrunda



qanımızdan, canımızdan hər an keçməyə hazır olmaqdır. Mən də öz növbəmdə komandirlərimi, əsgər yoldaşlarımı, xalqımı müqəddəs Qurban bayramı münasibətilə təbrik edir, edilən duaların, kəsilən qurbanların qəbul olunmasını arzu edirəm.

Qurban bayramınız mübarək!

**Əsgər Akşin Hüseynov:**

- Hərbi xidmət bizə Vətəni daha dərindən sevməyin, döyüş növbətçiliyini məsuliyyətlə aparmağın vacibliyini öyrədir. Üzərimizə düşən vəzifənin məsuliyyətini dərk edir, keçirilən dərsləri tam şəkildə mənimsəyərək nümunəvi əsgər olmağa çalışırıq. Komandirlərimizin sayəsində hərbi biliklərimizi daima artırır, Vətənimizi göz bəbəyimiz kimi qoruyur, onun müdafiəsində ayıq-sayıq dayanırıq.

Bu gün müqəddəs Qurban bayramını döyüş növbətçiliyində, Vətən keşiyində qeyd etdiyim üçün fərəhlənirəm. O növbətçilik ki, neçə-neçə igid oğullarımızın, şəhidlərimizin qəhrəmanlıq yolunun başlanğıcı olub. Torpaqlarımızın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən Və-



tən övladlarının şərəfli xidmət və döyüş yolu bizim üçün örnəkdir. Biz öz şücaətləri ilə adlarını Zəfər salnaməmizə qızıl hərflərlə yazmış qəhrəmanlarımızın davamçılarıyıq.

Mən də başda komandirlərim olmaqla, Azərbaycan Ordusunun şəxsi heyətini, valideynlərimi, yaxınlarımı və xalqımızı bu bayram münasibətilə təbrik edirəm. Arzu edirəm ki, bu müqəddəs bayram ölkəmizə firavanlıq, süfrələrimizə bol ruzi-bərəkət gətirsin. Bayramınız mübarək!

**Əsgər Niyaz Əhmədov:**

- Əziz ailəm və xalqım, dəyərli silah yoldaşlarım və dostlarım! Qurban bayramının müqəddəs günlərində hər birinizi ən səmimi duyğularla təbrik edirəm! Bu bayramın gətirdiyi xoş əhval-ruhiyyə qəlbinizi sevinc, evinizi bərəkət və ruhunuzu əmin-amanlıqla doldursun.

Bu bayram bizə bir olmağın, bərabərliyi qorumağın və həmrəylik göstərməyin nə qədər vacib olması ilə bərabər, həm də ətrafımızdakı insanlara qarşı daha diqqətli olmağı, çətinlikdə olanlara əl uzatmağı, öyrədir.

Unutmayaq ki, həyatımızın ən dəyərli anları sevdiklərimizlə keçirdiyimiz zamanlardır.

Qurban bayramı yalnız bir ənənə deyil, həm də insanlar arasında sevgi və anlayış körpüsüdür. Bu bayram münasibətilə sizə və sevdiklərinizə səmimi ürək sözlərimi çatdırmaq istərdim. Arzu edirəm ki, bu xüsusi günlər sizə çoxlu və sevincli anlar bəxş etsin. Həyatınızda xoş xəbərlər sonsuz, hər gününüz bayram tək əziz və dəyərli olsun.

Qoy hər bir ailədə xoşbəxtlik, firavanlıq, qarşılıqlı sevgi hökm sürsün. Süfrələriniz həmişə bol, eviniz həmişə işıqlı, əhvalınız yüksək, arzularınız çin olsun. Sevdiklərinizlə bir araya gəlib, unudulmaz anlar yaşayasınız. Hər birinizə, eləcə də doğmalarınıza və yaxınlarınıza sağlamlıq, uğurlu və bərəkətli günlər arzulayıram.

Bu gözəl bayramda sizə ən gözəl duyğularla xoşbəxtlik, rahatlıq və könül xoşluğu diləyirəm. Həyatınız boyu üzünüzdən təbəssüm, qəlbinizdən sevinc əskik olmasın. Hər zaman sevdiklərinizlə birgə xoşbəxt anlar yaşayasınız. Qurban bayramınız mübarək olsun!

**Əsgər Elxan Əhmədli:**

- Əziz və dəyərli ailəm, doğmalarım, silahdaşlarım!

Qurban bayramı münasibətilə hər birinizi dərin sevgi və ehtiram hissi ilə səmimi qəlbdən təbrik edirəm! Bu müqəddəs və mənəviyyat dolu bayramın bəxş etdiyi yüksək duyğuları sizinlə bölüşmək, bu gözəl gündə hər birinizə ürəyimdən gələn xoş diləkləri çatdırmaq istərdim.

Bu bayram ruhun saflaşdığı, könüllərin birləşdiyi, insanlığın, mərhəmətin, paylaşmanın və yardımlaşmanın ən ali dəyərlərlə qeyd olunduğu müqəddəs bir gündür. Bu bayram insanlar arasında mehribanlıq, anlayış və qarşılıqlı hörmətin daha da güclənməsinə səbəb olur. İnsanlar bu günlərdə ehtiyacı olanları sevindirir, qəlblərə ümid və sevinc toxumu səpirlər.



Arzu edirəm ki, bu mübarək günlərdə etdiyiniz hər bir dua, kəsdiyiniz hər bir qurban, söylədiyiniz hər bir xoş söz Allah dərgahında qəbul olunsun. Bu bayram sizə və ailənizə bol ruzi-bərəkət və daimi rifah gətirsin. Hər bir evdə sevinc gülüşləri eşidilsin. Hər kəsin niyyət və arzusu gerçək olsun. Müqəddəs bayramınız mübarək olsun!



# Polşa nümayəndə heyəti Hərbi İnstitutda olub

Ölkəmizdə səfərdə olan Polşa Respublikasının Yaroslav Dombrovski adına Hərbi Texnologiyalar Universitetinin ingilis dili müəllimlərindən ibarət nümayəndə heyəti Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutu ziyarət edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində qonaqlar institutun tarixi və fəaliyyəti ilə yaxından tanış olub, təhsil müəssisəsinin keçdiyi şərəfli yol barədə ətraflı təqdimat izləyiblər. Tədbir zamanı nümayəndələr institutda həyata keçirilən tədris prosesi, tədris proqramları və təlim sisteminin əsas istiqamətləri haqqında məlumatlandırılıblar.

Görüşdə ingilis dili fənninin tədrisi ilə bağlı qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparılıb və nümayəndələrin sualları ətraflı şəkildə cavablandırılıb.

Yekunda nümayəndə heyəti institutun muzeyi ilə də yaxından tanış olub.



*Nümunəvi xidmət*

# Polad iradəli tankçılar

(Əvvəli 1-ci səhifədə)

Tankları idarə edən şəxslərə də tankçılar deyilir. Tankı idarə etmək üçün bir neçə nəfərdən ibarət heyət tələb olunur. Ənənəvi tank heyəti, adətən üç və ya dörd nəfərdən ibarət olur və hər bir üzvün özünəməxsus vəzifəsi var.

Ağır hərbi texnikanı idarə edən tankçılar xüsusi bilik və bacarıq tələb edən peşənin daşıyıcılarıdırlar. Azərbaycan Ordusunda da bu məsuliyyətli peşəni ləyaqətlə yerinə yetirən hərbi qulluqçular çoxdur. Onların arasında xalqımızın qəhrəman oğlu iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun yolunu davam etdirən bacarıqlı və Vətəninə sadiq tankçılar da yer alırlar.

Onlardan biri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Sadiq Quluzadədir. O, 5 ildir ki, Azərbaycan Ordusunun sıralarında xidmət edir. Sadiq bu illər ərzində tankçı peşəsinə böyük maraq göstərərək bu sahəni dərindən mənimsəyib, hərbi təlimlərdə daim fəal iştirak edib, bilik və bacarığı ilə seçilib. "Tankçı olmaq dözümlülük tələb edir. Gərək fiziki cəhətdən güclü olasan. Hər insanın bu həyatda bir vəzifəsi var, bizim də müqəddəs vəzifəmiz Vətəni qorumaqdır".

Sadiq 2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsində, həmçinin 2023-cü ilin antiterror əməliyyatında da fəal iştirak edib. Onun göstərdiyi şücaət və vətənpərvərlik Azərbaycan Respublikasının Prezidenti tərəfindən yüksək qiymətləndirilib. Sadiq Quluzadə "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Azərbaycan Ordusunun peşəkar tankçılarından biri də çavuş Elgiz Hacıyevdir. O, artıq 11 ildir ki, ordu sıralarında xidmət edir. Mərdliyi və döyüş bacarığını hələ 2016-cı ilin Aprel döyüşlərində sübut edən Elgiz Hacıyev 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında da fəal iştirak edib, tankçı kimi yüksək peşəkarlığını döyüş meydanında nümayiş etdirib.



Xidmət illəri ərzində qazandığı təcrübəni bizimlə bölüşən çavuş Elgiz Hacıyev dedi ki, Azərbaycan Ordusunda xidmət etmək mənim üçün qürurverici bir hissdir. "Çünki illərdir həsrətində olduğumuz torpaqlarda artıq rahat nəfəs ala bilirik. 44 günlük şanlı tarixi yazan igidlərimizlə fəxr edirəm. Bu yolda şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızın valideynlərinə səbir diləyirəm".

Onun da döyüş meydanında göstərdiyi şücaət layiqincə qiymətləndirilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Elgiz Hacıyev "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Tarix boyu tanklar müharibələrin gedişatını dəyişdirən texnikalardan olub. Bu gün isə daha müasir və sürətli tanklar yüksək hazırlıqlı heyətlə birlikdə müasir orduların döyüş potensialını əhəmiyyətli dərəcədə artırır. Azərbaycan Ordusu da bu sahədə mühüm uğurlar əldə edib, peşəkar və vətənpərvər kadrlar yetişdirib. Xüsusilə tankçılar yalnız texnikanı idarə etməyi deyil, həm də döyüş meydanında düzgün qərar verməyi, koordinasiyalı hərəkət etməyi və yüksək dözümlülük göstərməyi bacaran mütəxəssislərdən ibarət olmalıdır.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**



*Məişət*

# Yaxşı istirahət edən əsgərin xidmət keyfiyyəti də yüksək olur

*Azərbaycan Ordusu müstəqilliyimizin və dövlətçiliyimizin əsas dayağıdır. Qədim dövrlərdən etibarən xalqımız öz dövlətçiliyini qoruyub saxlamaq, Vətəni müdafiə etmək uğrunda igidliklə döyüşüb. Bu gün müasir, qüdrətli Azərbaycan Ordusu isə bu şərəfli ənənələrin layiqli davamçısıdır.*

Ordumuzun qüdrətinin əsasını onun peşəkar şəxsi heyəti, hərbi qulluqçuların yüksək döyüş ruhu, həmrəyliyi və vətənpərvərliyi təşkil edir. Hər bir hərbi qulluqçu öz canı, qanı bahasına torpaqlarımızın ərazi bütövlüyü və suverenliyini qoruyur. Onların Vətən müharibəsində göstərdiyi şüacət və qazandığımız möhtəşəm Zəfər Azərbaycan Ordusunun gücünü, iradəsini bir daha bütün dünyaya nümayiş etdirdi.

Bu gün ən müasir silah və texnika ilə təmin olunan Azərbaycan Ordusu regionda sülhün, sabitliyin və inkişafın təminatçısıdır.

Azərbaycan əsgərinin ən güclü silahı isə onun ürəyindəki Vətən sevgisidir. Tariximizin hər mərhələsində olduğu kimi, bu gün də hərbçilərimizin Vətən uğrunda fədakarlığı, qəhrəmanlığı xalqımızın qürur yeridir. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi məhz bu ruhla bərpa olunub, hazırda da bu ruhla qorunur.

Biz də bu müqəddəs ruhların birləşdiyi yerə səfərə çıxdıq. Yolumuz igid Azərbaycan əsgərinin xidmət etdiyi bölmələrdən birinədir.

Hərbi qulluqçuların rahat və səliqəli şəraitdə xidmət etməsi müasir ordunun əsas tələblərindən biri hesab olunur. Əsgər yataqxanaları bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Olduğumuz bölmədə əsgər yataqxanasında mövcud olan şəraitlə tanış olmaq məqsədilə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Şahin Sücəddinov ilə birlikdə ora yollandıq. Ş.Sücəddinov bizə əsgər yataqxanası barədə məlumat verərək dedi ki, adətən ikimərtəbəli çarpayılarla təchiz olunan yataqxanada hər bir əsgərin şəxsi əşyalarını yerləşdirməsi üçün ayrıca dolabı olur. Yataqxananın təmizliyi hər gün yoxlanılır, əsgərlərin öz yerlərini səliqəli saxlamalarına ciddi nəzarət edilir.



"Yataqxanalarda, həmçinin qış aylarında istilik sistemi, yay aylarında isə havalandırma sistemi işləyir. Bu, isə əsgərlərin sağlamlıqlarının qorunmasına imkan yaradır", - deyə Ş.Sücəddinov bildirdi. Hərbi qulluqçumuz onu da qeyd etdi ki, yaxşı istirahət edən əsgər xidməti yüksək səviyyədə təşkil edir.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

## Görkəmli şəxsiyyətlər

# General-mayor Feyzulla Mirzə Qacar

Feyzulla Mirzə Qacar 1872-ci il dekabrın 15-də Şuşada general-mayor Şəfi xan Mirzənin ailəsində dünyaya gəlib. Əmisi Rzaqulu Bəhmən Mirzə oğlu da general olub. Dörd general əminin - Rzaqulu Mirzə, Əmir Kazım Mirzə, Əmənulla xan Mirzə və Məhəmməd Mirzənin ilk "general-mayor" rütbəsi alan qardaşı oğludur.

Feyzulla Mirzə ümumi təhsilini Tiflis müdavim korpusunda alıb. 1891-ci ilin avqustunda Peterburqdakı Nikolayevski süvari peşə məktəbinə qəbul olmaqla hərbi xidmətə başlayıb. 1893-cü ilin avqustunda bu məktəbi bitirdikdən sonra ona "kornet" hərbi rütbəsi verilib və 43-cü Tver draqun alayına göndərilib. 1899-cu ilin martında "leytenant" rütbəsi alıb. 1901-ci ilin noyabrında alayın silahdar və sıraxarici komanda rəisi vəzifəsinə təyin olunub. 1903-cü ilin martında "rotmistr" rütbəsi alıb.

Rus-yapon müharibəsi başladıqdan sonra 43-cü Tver draqun alayının qərargah rotmistri Feyzulla Mirzə Qacar 1904-cü ilin martın sonunda "podyesaul" (Kazak qoşunlarında kapitan) rütbəsi alaraq polkovnik Hüseyn Xan Naxçıvanski tərəfindən yeni formalaşdırılan 2-ci Dağıstan süvari alayına göndərilib.

Feyzulla Mirzə Qacar 1904-1905-ci illərdə Port-Arturun müdafiəsində uğurla iştirak edib. 1905-ci il yanvarında Landunqou kəndi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla vuruşub, gərgin döyüşlərin birində sağ ayağından ağır yaralanıb.

Həmin ildə nəşr olunan "Niva" jurnalının 18-ci nömrəsində igid həmyerlimizin fotoşəkli dərc edilib.

Müharibə bitdikdən sonra 1906-cı ilin martında 43-cü Tver draqun alayına qaytarılıb. Noyabrda 4-cü eskadronun komandiri təyin edilib.

1912-ci ilin aprelində general-mayor Hüseyn Xan Naxçıvanskinin Rus imperatorunun hərbi-səhra kanselyariyasının rəisi knyaz V.N.Orlova məktubundan: "Onu (şahzadə Qacarı) döyüş keyfiyyətləri baxımından da görkəmli sayıram: bir çox işlərdə iştirak edərək dəfələrlə şücaət və igidlik sərgiləyib. Xüsusən də Sandepu yaxınlığında gedən döyüşlərdə fərqlənib, 1905-ci ilin yanvarın 15-i müvəqqəti olaraq 100 hərbçiyə rəhbərlik edərkən Landunqou kəndinin yanında Dağıstan alayının atlı hücumunda iştirak edib və ayağından ağır yaralanıb".



1912-ci ilin avqustunda xidmətində fərqlənmələrə görə "podpolkovnik" rütbəsi alıb.

Çarın 1913-cü ilin aprelində verdiyi əmrilə podpolkovnik Feyzulla Mirzə Qacar 10-cu Novqorod Virtemberq kralı alayına təhkim edilib. Orada qərargah zabiti vəzifəsində xidmət edib.

1914-cü ilin noyabrında Feyzulla Mirzə Qacar Qafqaz yerli süvari alayına təhkim edilmək üçün Lvova - general-leytenant Hüseyn Xan Naxçıvanskinin rəhbərlik etdiyi 2-ci kavaleriya korpusuna göndərilib.

1915-ci ilin yanvarında (1914-cü ilin avqusutun 31-də baş vermiş döyüşdə fərqlədiyinə görə) "polkovnik" hərbi rütbəsinə layiq görülüb.

Onun komandirlik məharəti barədə "Kaspi" qəzetinin 1916-cı il fevral sayında yazılıb: "Çeçen süvari alayının komandiri, dördüncü dərəcəli "Müqəddəs Georgi" ordenli şahzadə podpolkovnik Feyzulla Mirzə Qacar 1915-ci il fevralın 15-də şəxsi təşəbbüsü ilə sıralarında yalnız bir zabiti olan Ulan-Kazak alayının dörd bölüyünə komandanlığı öz üzərinə götürmüşdür. Güclü tüfəng və pulemyot atəşindən məharətlə istifadə edən cəsur komandir Feyzulla Mirzə Qacar Brın kəndini düşməndən itkisiz geri almışdır. Belə mühüm əhəmiyyətli döyüş sahəsini düşməndən təmizlədiyinə görə igid komandir Feyzulla Mirzə Qacar üçüncü dərəcəli "Müqəddəs Vladimir" (qılıncla birgə) və ikinci dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə) ordeni ilə təltif olunmuşdur. Şahzadəyə həm də polkovnik rütbəsi verilmişdir".

1916-cı ilin dekabrında Rumıniyanın Vali-Salçi kəndinin yaxınlığındakı döyüşdə ağır yaralanıb və müalicə olunması üçün Rusiyaya təxliyə edilib. 1917-ci ilin fevralında sağalaraq yenidən ordu sıralarına qayıdıb və çeçen alayına komandir təyin olunub.

1917-ci ilin mayında məhz Birinci Dünya müharibəsi illərində göstərdiyi qeyri-adi igidliyə və əla komandirlik məharətinə görə polkovnik Feyzulla Mirzə Qacara "general-mayor" hərbi rütbəsi verilib. Həmin il mayın 30-u isə Qafqaz müsəlmanlarından təşkil olunan Birinci Qafqaz süvari diviziyasına komandir təyin olunub.

Feyzulla Mirzə Qacarın "general-mayor" olması haqqında K.A.Zalesskinin 2003-cü ildə Moskvada nəşr olunan "Birinci Dünya Müharibəsində kim-kim olmuşdur" adlı hərbi ensiklopedik kitabında da məlumat verilib (səh. 876).

Rusiyadakı inqilabi çevrilişdən sonra Qafqazdakı rus ordusu buraxılarkən general-mayor Feyzulla Mirzə Qacar Zaqafqaziya Komissarlığının sərəncamı ilə Gəncəyə göndərilib.

Vətənə qayıdan Feyzulla Mirzə Qacar 1918-ci ilin yaz və yayında Azərbaycan korpusunda xidmət edib. Azərbaycan korpusu buraxıldıqdan sonra onun hissələri yeni gəlmiş Türkiyənin 5-ci Qafqaz və 15-ci Çanaqqala diviziyaları ilə Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun tərkibinə qatılıb. O, kavaleriya inspektoru vəzifəsinə təyin edilib. 1918-ci ilin dekabrında AXC-nin süvari diviziyasının komandiri olub.

O, bundan sonra da Azərbaycan Milli ordusunda xidmətini davam etdirmək istəyir. Bu məqsədlə 1918-ci il dekabrın 23-də Baş Qərargah rəisinin adına belə bir raport yazıb: "Yenidən hərbi xidmətimi davam etdirmək arzusu ilə mənim Azərbaycan ordusu sıralarına qəbul olunmağım haqqında zəmanət verməyi xahiş edirəm".

General-mayor Feyzulla Mirzə Qacarın müraciətindən sonra - 1919-cu il yanvarın 9-da Hərb naziri tam artilleriya generalı Səməd bəy Mehmandarovun və Baş Qərargah rəisi polkovnik Həbib bəy Səlimovun əmrilə o, Gəncə qarnizonuna rəisi təyin olunub.

General-mayor Feyzulla Mirzə Qacar Milli ordu quruculuğunda, Qarabağda erməni-lərin müsəlman kəndlərinə hücumlarının, habelə erməni silahlı birləşmələrinin Gəncəbasarda milli zəmində törətmək istədikləri neçə-neçə terror əməllərinin qarşısının alınmasında fəallıq göstərib.

1920-ci ilin aprelində bolşevik-daşnak qoşunları tərəfindən ölkəmizin istilasına dözməyən Azərbaycan Ordusunun mərd əsgər və zabitləri ölkəmizin hər yerində olduğu kimi, Gəncədə də istilaçılara tabe olmaq istəməyən əhali üsyana qalxıb. Bu ağır döyüşlərdə Feyzulla Mirzə Qacarın iki əmisi - general Əmir Kazım Mirzə və general Məhəmməd Mirzə son nəfəsinə qədər vuruşaraq Vətən uğrunda şəhid olublar.

Gəncə üsyanından sonra xalqımızın qəhrəman oğlu, peşəkar hərbçi-xadim general-mayor Feyzulla Mirzə Qacar həbs olunaraq Bakıya gətirilib. O, erməni-bolşevik qüvvələri tərəfindən Müsavat siyasi xadimləri ilə birgə Nargin adasında güllələnib.

Feyzulla Mirzə Qacar xidməti müddətində ona verilən əmr və tapşırıqların vaxtında, qüsursuz və dəqiq icrasına, yüksək komandirlik bacarığına, hərbçi peşəkarlığına, döyüşlərdə göstərdiyi şücaətlərə və xüsusi fərqlənmələrə görə bir çox orden, medal və müxtəlif qiymətli hədiyyələrə layiq görülüb. Bunlardan "İgidliyə görə" yazısı olan dördüncü dərəcəli "Müqəddəs Anna" (1904), Yaponiya ilə müharibə zamanı müxtəlif fərqlənmələrə görə qılınc və bantlı üçüncü dərəcəli "Müqəddəs Stanislav" (1905), Bensixu ərazisində gedən döyüşlərdə göstərdiyi şücaətlərə görə qılınc və bantlı üçüncü dərəcəli "Müqəddəs Anna", qılınclı ikinci dərəcəli "Müqəddəs Stanislav" (1907), Rostoki kəndinin yaxınlığında baş vermiş döyüşdə fərqləndiyinə görə qılınc və bantlı dördüncü dərəcəli "Müqəddəs Vladimir", Kuskovçı kəndi yaxınlığında baş vermiş döyüşdə göstərdiyi şücaətə görə qılınclı ikinci dərəcəli "Müqəddəs Anna", dördüncü dərəcəli "Müqəddəs Georgi" (1915) və İranın üçüncü dərəcəli "Şire-Xorşid" (1907) ordenini misal göstərmək olar.

Feyzulla Mirzə Qacar Xurşid xanım Naxçıvanski ilə ailəli olub.

**"Azərbaycan Ordusu"**

## Sıra hazırlığı

## "Çalışırıq ki, keçirilən sıra hazırlığı məşğələlərinin bütün incəliklərini tam mənimsəyək"

**(Əvvəli 1-ci səhifədə)**

Məşğələ rəhbəri leytenant E.Nəsibli məşğələ haqqında məlumat verərək bildirdi ki, sıra hazırlığı hərbi qulluqçu üçün ən vacib hazırlıqlardan biridir. "Bu səbəbdən də əsgərlərimiz digər dərslərdə olduğu kimi, sıra hazırlığı məşğələsində də yüksək əzmkarlıq göstərirlər. Onlar məşğələ zamanı hər hansı bir hərəkəti yanlış icra edərlərsə əvvəlcə əyani şəkildə izah edir, daha sonra isə praktiki olaraq hərəkətin düzgün qaydasını göstəririk. Nəticə etibarı ilə əsgərlərimiz sıra hazırlığının bütün hərəkətlərini səhvsiz icra edirlər".

Məşğələ haqqında geniş məlumat verən zabit dedi ki, sıranın idarə olunması zamanı verilən komandalar xəbərdarlıq və icra komandalarından, yaxud da ancaq icra komandasından ibarət ola bilər. Hər hansı xəbərdarlıq komandası verilən sırada və sıradan kənarda olan hərbi qulluqçular "Farağat" vəziyyəti alırlar. Sırada hərəkət edənlər isə ayaqlarını yerə daha möhkəm vurmalıdırlar.



"Bizim əsas vəzifəmiz keçirilən məşğələlər zamanı bütün bilik və bacarıqlarımızı səfərbər edərək, əsgərlərimizin hərtərəfli inkişafını yüksək səviyyədə təmin etmək, onları əsl döyüşçü kimi formalaşdırmaqdır. Onlar da öz növbələrində məşğələlərdə həvəslə iştirak edir, verilən tapşırıqları cəld və düzgün yerinə yetirirlər", - deyə zabit E.Nəsibli vurğuladı.

Əsgər Cavidan Yusifov keçirilən dərslər sayəsində hərbin bütün sirlərinə dərindən yiyələndiyini dedi. "Peşəkar komandirlərimizin köməkliyi ilə verilən bütün tapşırıqların öhdəsindən çətinlik çəkmədən gəlməyə qadirik. Əlbəttə bununla kifayətlənmir, zabitlərimizin köməkliyi ilə hərbi biliklərimizi gündən-günə daha da artırmağa, əsl peşəkar döyüşçü kimi formalaşmağa çalışırıq. Yaxşı bilirik ki, qəhrəman oğullarımızın qanı və canı bahasına azad edilən torpaqların müdafiəsi bu gün bizim üzərimizə düşür. Hər birimiz bu vəzifəni düzgün yerinə yetirmək və ailəmizin, doğmalarımızın yanına başıuca qayıtmaq üçün səylə çalışırıq".

Əsgər Ağahüseyn Kərimov bildirdi ki, xidmətə başladığı ilk gündən etibarən hərbi hissədə sıra hazırlığına çox üstünlük verirdilər. "Biz də hər zaman çalışırıq ki, keçirilən sıra hazırlığı məşğələlərinin bütün incəliklərini tam mənimsəyək. Təcrübəli komandirlərimizin əziyyəti və gərgin əməyi nəticəsində buna nail olduq. Xidmətimin bir qisminin geridə qalmasına baxmayaraq, mən də digər əsgər yoldaşlarım kimi öz üzərimdə daima çalışıram".

Digər hərbi qulluqçularımız Kamran Məmmədov, Tural Məmmədli, Bayram Həsənov və Hicran Pircanov qeyd etdilər ki, bölmədə bütün hazırlıq məşğələləri kimi, sıra hazırlığı məşğələsi də yüksək səviyyədə təşkil olunaraq keçirilir. Sıra elementlərinin bütün vərdişlərinə yiyələnən hərbi qulluqçularımız verilən heç bir komandanı yerinə yetirməyə çətinlik çəkmirlər. Keçirilən məşğələdə şəxsi heyətin hazırlığının yüksək səviyyədə olduğunun əyani şahidi olduq.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## Mövzu: Azərbaycan xanlıqlar dövründə

**Suallar:**

**1. Azərbaycan xanlıqlarının yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**

**2. Azərbaycan xanlıqları.**

### Azərbaycan xanlıqlarının yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət

XVIII əsrin I yarısında Azərbaycan ərazisində ölkənin sonrakı taleyinə çox ciddi və həm də mənfi təsir göstərmiş bir sıra ictimai-siyasi xarakterli hadisələr baş verdi. Azərbaycanda gedən tarixi proseslər Cənubi Qafqazda, Səfəvilər dövlətində, Osmanlı (Türkiyə) və Rusiya imperiyalarında cərəyan edən hadisələrlə sıx bağlı idi. Bu dövrdə Səfəvilər dövlətinin tam tənəzzülü ilə əlaqədar Cənubi Qafqaz ərazilərinə yiyələnmək uğrunda qarşıdurmalar gücləndi. Tarixi hadisələrin gedişinə təsir edən mühüm amillərdən biri də Rusiya imperiyasının bu regiondakı siyasi və iqtisadi marağının artması idi. Rusiya imperiyası özünün inkişaf etməkdə olan iqtisadiyyatını xammalla təmin etmək, Volqa-Xəzər ticarət yolunu inkişaf etdirib genişləndirmək məqsədilə Xəzəryanı vilayətlərə yiyələnməyə, Osmanlı İmperiyasının həmin ərazilərdəki nüfuzunun artmasına mane olmağa çalışırdı. Azərbaycan faktiki olaraq XVIII əsrin ortalarından başlayaraq əsrin sonuna kimi 3 dövlətin - Qacarlar (İran) dövlətinin, Osmanlı və Rusiya imperiyalarının mənafelərinin toqquşduğu məkana çevrilmişdi. Ölkə ərazisi bu dövlətlərin arasında nüfuz dairələrinə parçalanırdı və təbii ki, belə bir vəziyyət Azərbaycanın tarixi-siyasi coğrafiyasına əsaslı təsir edirdi.

Hələ 1722-ci ildə I Pyotrun yürüşü nəticəsində Xəzərin bütün qərb və cənub-qərb sahilləri rus qoşunları tərəfindən zəbt olunmuşdu. 1723-cü ildə isə türk qoşunları Cənubi Qafqaza daxil oldu. 1724-cü ildə çar Rusiyası ilə Osmanlı imperiyası arasında bağlanan İstanbul müqaviləsinə görə Cənubi Qafqaz ərazisi iki dövlətin arasında nüfuz dairəsinə bölündü. Əsrin 30-cu illərində Azərbaycan ərazisi Səfəvi-Osmanlı imperiyaları arasında gedən yeni mübarizələrin obyektinə çevrildi.

Nadir şahın hakimiyyətə gəlməsi və fəaliyyəti Azərbaycan torpaqlarının parçalanması prosesinə ikitərəfli və əsaslı təsir göstərdi. Düzdür, o, Qarabağın məlikliklərini - Vərənd, Çilaberd, Gülüstan, Dizaq və Xaçın ərazilərini Gəncə bəylərbəyliyinə tabe etdi və sonra isə səfəvilərin inzibati bölgüsünə əsasən mövcud olan Qarabağ, Şirvan, Çuxursəəd və Təbriz bəylərbəyliklərini ləğv edərək Azərbaycan adı altında vahid inzibati bölgü yaratdı. Vahid Azərbaycanın mərkəzi Təbriz, hakimi isə Nadirin qardaşı İbrahim oldu. XVIII əsrin II yarısında Qazaxda azərbaycanlıların sultanlığı yaranır, Nadirin öldürülməsindən sonra (1747) onun dövləti süquta uğradı və ayrı-ayrı vilayətlərdə, o cümlədən Azərbaycanda ciddi parçalanma baş verdi. XVIII əsrin I yarısındakı dövr Azərbaycanın tarixi-siyasi coğrafiyası baxımından aşağıdakı səciyyəvi cəhətlərə malikdir:

1. Səfəvilərin hakimiyyətinin sonuna (1736) kimi Azərbaycan ərazisi bəylərbəyliklərə (4 bəylərbəyliyə - Qarabağ, Şirvan, Çuxursəəd, Təbriz) bölünmüşdü;
2. Şirvan (Xəzəryanı sahələr istisna olmaqla) 1721-1735-ci illərdə əsarətdən azad olub müstəqilliyə nail olsa da, Osmanlı imperiyasının nominal asılılığında qalırdı;
3. Azərbaycanın Xəzəryanı əraziləri çar Rusiyasının tərkibinə daxil olmuşdu (1722-1735);
4. İstanbul müqaviləsinə əsasən (1724) Azərbaycan ərazisi Osmanlı imperiyası ilə çar Rusiyası arasında bölünmüşdü;
5. Rəşt (1732) və Gəncə (1735) müqavilələrinə görə, Xəzəryanı ərazilər çar Rusiyasının nüfuz dairəsindən Səfəvilər dövlətinin nüfuz dairəsinə keçmişdi;
6. 1736-cı ildə Səfəvilər dövründəki bəylərbəylik sistemi ləğv edilmiş və 4 bəylərbəylik birləşdirilərək vahid Azərbaycan vilayəti yaradılmışdı;
7. Azərbaycanın Borçalı və Qazax əraziləri Nadir şah tərəfindən 1743-cü ildə Şirvanda yalançı Sam-Mirzənin başçılığı ilə Nadirə qarşı qalxmış üsyanı yatırdığından Kaxetiya çarı Teymuraza verilmişdir;
8. Nadirin ölümündən sonra ölkədə parçalanma prosesi şiddətlənmiş və Azərbaycan 30 (20 xanlıq, 5 sultanlıq və 5 məliklik) hissəyə ayrılmışdır.

### Azərbaycan xanlıqları

XVIII əsrin II yarısı da Azərbaycanın tarixi-siyasi coğrafiyası baxımından xüsusi dövrüdür. Bir tərəfdən Azərbaycan öz müstəqilliyinə nail olur, qonşu dövlətlərin, imperiyaların nüfuzundan çıxa bilir, digər tərəfdən isə vahidliyini itirir və heç də geniş olmayan ərazisində çoxsaylı müstəqil feodal dövlətləri - xanlıqlar və başqa dövlət qurumları təşəkkül tapır.

Azərbaycanın XVIII əsrin II yarısındakı ərazisi Səfəvilər dövründəki ərazisindən çox da fərqlənmir. Yeganə fərq şimali-qərb istiqamətdə Borçalı ərazisinin itirilməsi idi. Ölkənin sahəsi təxminən 380.000 kv.km. (səfəvilər dövrü təx. 400.000 kv. km) idi. XVIII əsrin 40-cı illəri - XIX əsrin I rübündə Azərbaycan ərazisində 20 xanlıq, 5 sultanlıq və 5 məliklik fəaliyyət göstərmişdir.

**Azərbaycanın cənub xanlıqları**

- Təbriz xanlığı (XVIII əsrin ortaları-1780) Xoy, Ərdəbil, Sərab, Qaradağ, Marağa xanlıqları və Urmiya gölü ilə həmsərhəd idi. Əsasını əfşar tayfasından Əmiraslan xan qoymuş, mərkəzi Təbriz şəhəri idi. 1780-ci ildə xanlığın fəaliyyətinə son qoyularaq ərazisi Xoy xanlığının tərkibinə qatıldı.

- Ərdəbil xanlığı (XVIII əsrin ortaları - XVIII əsrin sonu) Talış, Qaradağ, Təbriz, Marağa, Sərab xanlıqları və Gilan vilayəti ilə həmsərhəd idi. Əsası Bədir xan tərəfindən qoyulmuş, mərkəzi Ərdəbil şəhəri idi. Əsrin əvvəllərində şahsevənlər 4 qola ayrılır, Ərdəbil, Mişkin, Talış və Qaradağda ayrı-ayrılıqda fəaliyyət göstərməyə başlayırlar.

- Marağa xanlığı (XVIII əsrin ortaları - XVIII əsrin sonu) cənubda Saqqız mahalı, şimalda Təbriz, qərbdən Urmiya, şərqdə Ərdəbil xanlıqları ilə həmsərhəd idi. Əsası müqəddəm (Qarabağın Cavanşir elinin bir qolu) tayfasının başçısı Əliqulu xan tərəfindən qoyulmuş və mərkəzi Marağa şəhəri idi.

- Maku xanlığı (XVIII əsrin ortaları - XVIII əsrin sonu) Maku Səfəvilər dövründə Çuxursəəd bəylərbəyliyinin tərkibinə daxil idi. Maku xanlığı bayat tayfası tərəfindən idarə olunmuşdur.

- Qaradağ xanlığı (XVIII əsrin ortaları-1782) Lənkəran, Ərdəbil, Təbriz, Xoy, Naxçıvan, Qarabağ və Cavad xanlıqları ilə hüdudlanırdı. Əsası Kazım xan tərəfindən qoyulmuş və mərkəzi Əhər şəhəri olmuşdur. 1782-ci ildə Qarabağ və Xoy xanlıqları arasında bölüşdürülərək öz müstəqilliyini itirmişdir.

- Sarab xanlığı (XVIII əsrin ortaları-1786) Ərdəbil və Təbriz xanlıqları ilə həmsərhəd idi. Mərkəzi Sarab şəhəri idi. Əsası şəqaqi tayfasının başçısı Əli xan tərəfindən qoyulmuşdu.

- Xoy xanlığı (XVIII əsrin ortaları - XVIII əsrin sonu) Maku, Naxçıvan, Qaradağ, Təbriz, Urmiya xanlıqları və Osmanlı imperiyası ilə həmsərhəd idi. Əsası Şahbaz xan tərəfindən qoyulmuş və mərkəzi Xoy şəhəri idi.

- Urmiya xanlığı (XVIII əsrin ortaları - XVIII əsrin sonu) şimalda Xoy xanlığı, şərqdə Urmiya gölü və Marağa xanlığı, cənubda və qərbdə Osmanlı imperiyası ilə həmsərhəd olmuşdur. Mərkəzi Urmiya şəhəri idi. Əsası Urmiyanın irsi hakimi olan əfşar tayfa başçısı Fətəli xan Əfşar tərəfindən qoyulmuşdu.

XVIII əsrin sonu Azərbaycanın cənubundakı xanlıqlar - Ərdəbil, Marağa, Maku, Sarab və Urmiya Qacarlar dövlətindən asılı vəziyyətə düşərək müstəqilliklərinə son qoyulmuşdur.

**Azərbaycanın şimal xanlıqları**

- Qarabağ xanlığı (XVIII əsrin ortaları-1822) Kür və Araz çayları arasında mövcud olmuş, mərkəzi Şuşa şəhəri idi. Sərhədləri Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə hüdudlanırdı. Pənahəli xan Cavanşir tərəfindən təsis olunmuşdur. Onun dövründə Bayat, Şahbulaq qalaları tikilmiş, Əsgəran qalası möhkəmləndirilmiş, Şuşa (Pənahabad) şəhərinin əsası qoyulmuşdur. Əhalisini Cavanşir, İyirmi dörd, Otuzikilər, kəbirli, ziyadoğlu, baharlı tük tayfaları təşkil edirdilər. Xanlıq 1805-ci ildə Kürəkçay müqaviləsinə əsasən çar Rusiyasına ilhaq edilmiş və 1822-ci ildə çar fərmanı ilə ləğv edilmişdir.

- Şəki xanlığı (XVIII əsrin ortaları-1819) İlisu sultanlığı, Şamaxı, Qarabağ, Gəncə, Quba xanlıqları ilə həmsərhəd olmuş, mərkəzi Nuxa şəhəri idi. Təsisçisi Hacı Çələbi xan olmuşdur. Şəki xanlığı Azərbaycanın ən iri xanlıqlarından olmuş və onun ərazisi 8 mahala bölünmüşdür. Qəbələ və Ərəş sultanlıqları da Şəki xanlığından asılı idilər. Xanlıq 1805-ci ildə ikinci Kürəkçay müqaviləsinə əsasən çar Rusiyasına ilhaq edilmiş, 1819-cu ildə isə çar fərmanına əsasən ləğv olunub.

- Quba xanlığı (1726-1806) Azərbaycanın şimali-şərqində mövcud olmuşdur. 1724-cü ildə çar Rusiyasının tərkibinə daxil edilmiş və Hüseynəli xan xanlığın hakimi təyin olunmuşdu. Əyalətin paytaxtı əvvəl Xudat, 1735-ci ildən isə Quba şəhəri olmuşdur. Xanlıq Xəzər dənizi, Dərbənd xanlığı və Tabasaran əraziləri, Şəki, Şamaxı, Bakı xanlıqları ilə həmsərhəd idi. Quba xanlığı öz qüdrəti ilə seçildiyindən bəzən Dərbənddən Salyana (əsrin 60-cı illərində) kimi ərazilər onun nüfuz dairəsində olmuşdur. Quba xanlığı 1806-cı ildə çar Rusiyasına ilhaq edilmişdir.

- Bakı xanlığı (XVIII əsrin ortaları-1806) Nadir şahın ölümündən sonra yerli feodallardan biri olan Mirzə Məhəmməd xan tərəfindən əsası qoyulmuşdur. Xanlığın ərazisi Abşeron yarımadası və Bakı şəhərini əhatə edirdi. Paytaxtı Bakı şəhəri olmuş, Şamaxı və Quba xanlıqları ilə həmsərhəd idi. 1806-cı ildə Azərbaycanın şimalı və Bakı xanlığı çar Rusiyasına ilhaq olundu.

- Dərbənd xanlığı (XVIII əsrin ortaları-1806) əsası Məhəmməd Hüseyn xan tərəfindən qoyulmuş və Azərbaycanın şimali-şərqində fəaliyyət göstərmişdir. Qaraqaytaq usmiliyi, Tabasaran, Qazıqumuq və Quba xanlığı ilə həmsərhəd idi. Paytaxtı Dərbənd şəhəri olmuşdur. Xanlıq 40 il Quba xanlığından asılı olmuşdur. Xanlığın fəaliyyətinə 1806-cı ildə son qoyulmuş və çar Rusiyasının əyalətinə çevrilmişdir.

- Gəncə xanlığı (XVIII əsrin ortaları-1804) Murovdağ silsiləsindən Kür çayına kimi olan əraziləri əhatə edirdi. Xanlığın əsasını qacar tayfasının ziyadoğlular nəslindən olan Şahverdi xan qoymuşdur. Xanlıq Şəki, Qarabağ, İrəvan xanlıqları, Qazax, Şəmşəddil sultanlıqları və Gürcüstanla həmsərhəd idi. Paytaxtı Gəncə şəhəri olmuşdur. 1786-cı ildə hakimiyyətə gələn Cavad xan 1804-cü il yanvarın 3-də Sisianovla döyüşdə öldürüldükdən sonra xanlığın ərazisi çar Rusiyasına ilhaq olundu.

- İrəvan xanlığı (XVIII əsrin ortaları-1828) Ağrı vadisi, Dərələyəz və Göyçə gölü arasındakı torpaqlarda yerləşirdi. Naxçıvan, Qarabağ, Maku xanlıqları, Osmanlı imperiyası, Kartili-Kaxetiya çarlığı və Borçalı, Qazax sultanlıqları ilə həmsərhəd olmuşdur. Xanlığın əsasını Mir Mehdi xan Əfşar qoymuş, mərkəzi İrəvan şəhəri idi. Gülüstan (1813) müqaviləsinə görə Qacarlar dövlətinin, Türkmənçay (1828) müqaviləsinə əsasən isə çar Rusiyasına birləşdirilmişdir.

- Lənkəran (Talış) xanlığı (XVIII əsrin ortaları-1826) Talış dağları, Xəzər dənizi və Muğan düzü arasındakı torpaqlar, Gilan, Ərdəbil, Qaradağ, Cavad, Salyan xanlıqları ilə həmsərhəd idi. Xanlığın əsasını səfəvi nəslindən olan Cəmalləddin Mirzə bəy (Qara xan) qoymuşdur. Mərkəzi qızılağaclı Musanın dövründə Astara, ərdəbilli Seyid Abbasın dövründə isə Lənkəran şəhəri olmuşdur. Xanlıq 1800-cü ildə çar Rusiyasının nüfuz dairəsinə düşmüş və 1826-cı ildə çar fərmanı ilə ləğv edilmişdir.

- Naxçıvan xanlığı (XVIII əsrin ortaları-1827) Zəngəzur dağlarından Araz çayına kimi olan əraziləri əhatə edirdi. Xanlıq Kəngərli tayfasının başçısı Heydərqulu xan tərəfindən təsis edilmişdir. Mərkəzi Naxçıvan şəhəri olan xanlıq İrəvan, Qarabağ və Maku xanlıqları ilə həmsərhəd olmuşdur. 1797-ci ildə xanlıq Qacarlar dövlətindən asılı vəziyyətə düşmüş, 1828-ci ildən isə Türkmənçay müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir.

- Salyan xanlığı son vaxtlara qədər "Salyan sultanlığı" kimi tanınırdı və qonşu xanlıqların tərkibində göstərilirdi. Lakin son tarixi ədəbiyyatda onun Kür çayının mənsəbində kiçik xanlıq olduğu bildirilir. Xanlıq Xəzər dənizi, Şamaxı, Cavad və Talış xanlıqları ilə həmsərhəd idi.

- Cavad xanlığı (XVIII əsrin ortaları-1813) Kür ilə Arazın qovuşduğu yerdə mövcud olmuşdur. Şamaxı, Qarabağ, Qaradağ, Lənkəran və Salyan xanlıqları ilə həmsərhəd idi. Xanlığın əsasını şahsevən tayfasından Həsən xan qoymuş, mərkəzi Cavad qalası olmuşdur. 1768-ci ildən Quba xanlığından asılı olmuş və onun tərkibində çar Rusiyasına birləşdirilmişdir.

- Şamaxı (Şirvan) xanlığı (1748-1820) Bakı, Quba, Şəki, Qarabağ xanlıqları və Kür çayı ilə həmsərhəd idi. Əsası Hacı Məhəmmədəli bəy, Məhəmməd Səid bəy və Ağası qardaşları tərəfindən qoyulmuş, paytaxtı bir müddət Ağsu və sonra Şamaxı şəhəri olmuşdur. Xanlıq 1805-ci ildə çar Rusiyasının əsarətinə düşmüş və 1820-ci ildə çar fərmanına əsasən ləğv edilmişdir.

Azərbaycan ərazisində xanlıqlarla yanaşı, sultanlıqlar və məlikliklər də mövcud olmuşdur. Sultanlıq-sultanın başçılıq etdiyi monarxiya dövləti idi. Məliklik isə məliklər tərəfindən idarə olunan kiçik feodal hakimliyindən ibarət idi. Məliklik "xəmsə" (beşlik) də adlanırdı. Səfəvilər dövlətinin inzibati-ərazi vahidlərindən biri məliklik olmuş və 5 feodal hakimliyini (Qarabağ xanlığının tərkibində) - Vərəndə, Dizaq, Xaçın, Gülüstan və Çilabert hakimliklərini birləşdirmişdi. Azərbaycanda Qazax, Şəmşəddil, Ərəş, İlisu, Qəbələ sultanlıqların və Car-Balakən camaatlığının adına təsadüf edilir.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində, özünün dövlətçilik ənənələrini qoruyub saxlaya bilmiş, hətta Şərq və Qərb dünyasında özünəməxsusluğu ilə seçilən qüdrətli imperiyalar yaratmışdır. Bu həm Manna, Atropatena, Albaniya kimi qədim, həm də Şirvanşahlar, Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi qüdrətli orta əsr dövlətlərinin, həmçinin ərazi cəhətdən kiçik olsa da, xanlıqlar kimi siyasi müstəqilliyə malik son orta əsr dövlətlərimizin timsalında özünü göstərmişdir.

Bugünkü inkişafımızın təməlini təşkil edən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin milli dövlətçilik, vətənpərvərlik ideyaları, XX yüzilliyin sonu Azərbaycan xalqının dövlətçilik uğrunda apardığı mübarizəsi və qan yaddaşımızda əbədi yaşayacaq hadisələrin içərisində müstəqilliyimizin ilk 30 illik dövrünün keşməkeşləri, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun apardığı 44 günlük Vətən müharibəsinin, antiterror əməliyyatının heç vaxt silinməyəcək izləri əsrlər boyunca gələcək nəsillərimizin fikir və düşüncələrinə hakim kəsiləcək, şanlı tariximizə qızıl hərflərlə qeyd ediləcəkdir. Bu gün hər birimiz əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətçilik amallarını, yüksək ideyalarını yaşatmaq və gələcək nəslə çatdırmaq, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə onun ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməliyik.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Asudə vaxt*

# “Asudə vaxtımız səmərəli təşkil olunur”



Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəlməsində asudə vaxtın səmərəli təşkil olunması mühüm əhəmiyyət kəsb edir. Əsgərin asudə vaxtını səmərəli keçirməsi onun xidmət dövründə dünyagörüşünün artmasına səbəb olur. Ordumuzda hər bir hərbi qulluqçunun döyüş hazırlığı ilə yanaşı, asudə vaxtı da səmərəli təşkil olunur və bu sahəni şərtləndirən prinsiplər tətbiq edilir.

Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı parlaq qələbəsindən bəhs edən yeni nəşrlər, jurnallar və digər əyani vəsaitlər çap edilərək, şəxsi heyətin üçün hərbi hissələrə göndərilir. Artıq bu ənənə davamlı hala çevrilib. Əlamətdar tarixlərdə, bayram günlərində şəxsi heyətin asudə vaxtını səmərəli keçirməsi üçün lazımi şərait yaradılır. Bu sırada hərbi hissələrdə mədəni-kütləvi tədbirlər, viktorinalar, stolüstü idman oyunları keçirilir, Heydər Əliyev Mərkəzlərinə, muzeylərə, tarixi yerlərə ekskursiyalar təşkil olunur. Bütün bunlar da əsgərlərin bilik və bacarıqlarının artırılmasında əhəmiyyətli rol oynayır.

"N" hərbi hissəsində ezamiyyətdə olarkən şəxsi heyətin asudə vaxtının təşkili ilə maraqlandıq. Öyrənirik ki, şəxsi heyət asudə vaxt zamanı hərbi hissənin geniş, işıqlı, zəngin ekspozisiya quruluşuna malik ideoloji otaqda toplanır. Əsgər yataqxanasına quraşdırılan geniş ölçülü televizor, ideoloji otaqda ədəbi-bədii ədəbiyyatlardan ibarət guşə şəxsi heyətin istifadəsindədir. Əsgərlər asudə vaxtlarda toplaşıb hərbi vətənpərvərlik və müharibə mövzusunda çəkilən filmlərə baxır, qəzet, jurnal və kitab oxuyurlar.

Əsgərlərdən Rauf Cəlilov kitab, Elmir Kərimov isə qəzet oxumağı sevir. Əsgər Rauf Cəlilov söhbət zamanı dedi ki, o, mütaliəni çox sevir. "Asudə vaxtımız səmərəli təşkil olunur. Hərbi xidmətə gəldiyim gündən burada çoxlu bədii kitablar, sənədli povestlər, romanlar oxumuşam. Kitab oxumaq vərdişimi daha da təkmilləşdirmişəm".

Əsgər Elmir Kərimov isə müasir silah və texnikalar haqqında qəzet xəbərlərini, rəngli, maraqlı şəkillərlə zəngin jurnal yazılarını oxuduğunu dedi.

Əsgərlər Nəcəfəli Süleymanov və Ramal Bağırzadə stolüstü idman növü olan dama oyunu ilə məşğul idilər. Üstünlüyü əsgər Ramal Bağırzadə qazanmışdı. Görünür, Ramal dama oyununun peşəkarıdır.

Eyni zamanda, şəxsi heyət ordumuzun təbliğat orqanı olan "Azərbaycan Ordusu" qəzetinin bütün saylarını maraqla oxuyur, mətbuat sahəsində mütaliələrini daha da artırır və asudə vaxtlarda təşkil olunan mədəni-kütləvi tədbirlərdə yaxından iştirak edir, konsert proqramlarını yüksək əhval-ruhiyyə ilə dinləyir.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**



# İdman




## Bakıda keçiriləcək UFC turnirinin ulduz qonaqları bəlli olub

UFC-nin super yüngül çəki dərəcəsində çempionu, gürcü döyüşçü Merab Dvalişvili və keçmiş yarımorta çəki çempionu, amerikalı döyüşçü Belal Muhammad Bakıya gələcəklər.

Onlar UFC-nin Azərbaycan paytaxtında keçiriləcək turnirinin ulduz qonaqları olacaqlar.

Yarış iyunun 21-də Kristal Zalda təşkil olunacaq.

Gecənin əsas qarşılaşması keçmiş UFC yarım ağır çəki çempionu Camal Hill ilə keçmiş titul iddiaçısı Xalil Rauntri arasında baş tutacaq. Həmin gecənin ikinci ən vacib döyüşü isə həmyerlimiz Rafael Fiziyev ilə Çili təmsilçisi İqnacio Baxamondes arasında yüngül çəkidə keçiriləcək.

Turnir çərçivəsində, həmçinin Azərbaycan təmsilçiləri Nazim Sadıxov və Tofiq Musayev də oktaqona çıxacaqlar. Onların rəqibləri isə müvafiq olaraq braziliyalı Nikolas Motta və qırğızıstanlı Mıqtıbek Orolbay olacaq.

## Azərbaycanın akrobatika gimnastları Dünya Kubokunda 3 gümüş medal qazanıblar



Akrobatika gimnastikası üzrə Azərbaycan millisinin üzvləri Bolqarıstanın Burqas şəhərində keçirilən Dünya Kubokunda üç müxtəlif proqram üzrə yüksək nəticələr əldə ediblər.

Qarışıq cütlükdə Sabir Ağayev və Milana Əliyeva, kişi cütlüyündə Murad Rəfiyevlə Daniel Abbasov gümüş medala sahib çıxıblar.

Abdulla Əl-Məşayxi, Seymur Cəfərov, Riad Səfərov və Rəsul Seyidlidən ibarət kişi qrupu da eyni nəticəyə imza ataraq fəxri kürsünün ikinci pilləsində yer alıb.

## Cüdo üzrə Azərbaycan millisi dünya çempionatına hazırlığı davam etdirir



Kişi cüdoçulardan ibarət Azərbaycan millisi dünya çempionatına hazırlığın son mərhələsini Bakıda davam etdirir.

Cüdoçular Milli Komandaların Təlim-Məşq Mərkəzində gün ərzində iki dəfə olmaqla intensiv məşqlərə cəlb olunublar. Məşqlərin birinci hissəsi fiziki, ikinci mərhələsi isə texniki-taktiki hazırlıqdan ibarətdir.

Toplanışa performans direktoru, kişilərdən ibarət yığmanın baş məşqçisi Riçard Trautman, böyük məşqçilər Elxan Məmmədov, Elçin İsmayılov, Robert Kravçik və Slavko Tekiç rəhbərlik edirlər.

Qeyd edək ki, cüdo üzrə böyüklər arasında dünya çempionatı 13-20 iyun tarixlərində Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək. Azərbaycanı bu mötəbər turnirdə 10 çəki dərəcəsində 13 cüdoçu (9 kişi, 4 qadın) fərdi yarışlarda təmsil edəcək. Yığmamız, həmçinin qarışıq komanda yarışında da qüvvəsini sınayacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar



## Brüsseldə NATO-ya üzv ölkələrinin müdafiə nazirlərinin iclası keçirilib

Brüsseldə NATO-ya üzv ölkələrin müdafiə nazirlərinin iclası keçirilib.

İclasda iyunun 24-25-də Haaqada keçiriləcək NATO Sammitinə qədər müdafiə qabiliyyətinin gücləndirilməsi ilə bağlı son hazırlıqlar müzakirə olunur. Gündəmin əsas mövzularından biri NATO-nun şərq sərhədlərinin müdafiəsi üçün yeni hərbi planların razılaşdırılmasıdır.

ABŞ Prezidenti Donald Trampın irəli sürdüyü və bəzi üzv ölkələrin dəstəklədiyi müdafiə xərclərinin ümumi daxili məhsulun (ÜDM) 5 faizinə qədər artırılması təklifi də geniş müzakirə edilir. Hazırda qüvvədə olan 2 faiz hədəfinə hələ də tam əməl etməyən ölkələrin mövcudluğu fonunda bu təşəbbüs ambisiyalı hesab olunur.

NATO-nun Baş katibi Mark Rutte əvvəlki açıqlamalarında bu təklifin zəruriliyinə dair mövqe nümayiş etdirib. Təklifə əsasən 3,5 faiz bilavasitə əsas hərbi xərclər - silahlanma, sursat və hərbçilərin maaşları, 1,5 faiz isə zəruri infrastruktur obyektlərinin, o cümlədən körpü və yolların inşası və yenilənməsi üçün nəzərdə tutulur.

Bundan başqa, iclasda hava hücumundan müdafiə, logistik imkanlar, uzaqmənzilli silah sistemləri və pilotsuz uçuş aparatlarının rolu da diqqət mərkəzindədir.

## Qazaxıstanda helikopter və PUA istehsal edən zavod tikiləcək



Qazaxıstanın Türküstan vilayətində helikopter və dronların, o cümlədən insan və yüklərin daşınması üçün pilotsuz təyyarələrin istehsalı üzrə yeni zavod tikilə bilər.

Türküstan vilayəti rəhbərinin mətbuat xidmətinin verdiyi xəbərə görə, vilayətin başçısı Nuralxan Kuşerov ilə sərmayədarın nümayəndəsi arasında görüş keçirilib, layihənin həyata keçirilməsi şərtləri müzakirə olunub.

Xarici şirkət Türküstan bölgəsinə 290 milyon dollara yaxın investisiya yatırmaq niyyətindədir. Zavodun 150-dək yeni iş yerinin yaradılmasına və region sənayesində yeni sahələrin inkişafına təkan verəcəyi gözlənilir.

Müəssisə helikopter və dronların həm mülki, həm də potensial xüsusi modellərini istehsal edəcək. Onlardan logistika, kənd təsərrüfatı, turizm, infrastrukturun monitorinqi və digər sahələrdə istifadə olunacaq.

Layihə iqtisadiyyatın sürətlə inkişaf edən sektoruna - aşağı hündürlükdə aviasiyaya, yəni, 3000 metrə qədər yüksəklikdə uçan təyyarələrə yönəlib. Əsas diqqət şəhər hava nəqliyyatı, yüklərin çatdırılması və dronlardan istifadə etməklə təcili yardım, eləcə də onların kənd təsərrüfatı və sənaye sektorlarında istifadəsinə yetirilib.

**AZƏRTAC-ın materialları əsasında**

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Elçin İMANOV

Lisenziya № 361
Sifariş № 262
Nüsxə 3630